# Elmin və təhsilin inkişafına töhfə

## Magistr və doktorantlara hərbi xidmətdən möhlət hüququnun verilməsi təhsildə fasiləsizliyi, elm sahəsində isə gəncləşməni təmin edəcək

**Azərbaycan müstəqilliyini ikinci dəfə bərpa edəndən sonra Ermənistanın işğalçılıq, təcavüzkarlıq və soyqırımı siyasəti ilə üzləşib. Elan edilməmiş müharibə nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlar da daxil olmaqla, Azərbaycanın 20 faiz ərazisi işğal olunub, 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. 1994-cü ildə tərəflər arasında atəşkəs haqqında razılıq əldə edilməsinə baxmayaraq, Dağlıq Qarabağ problemi, ərazilərimizin işğaldan azad edilməsi bu günə qədər həllini tapmayıb.**

Beləliklə də Azərbaycan 1994-cü ildən bu yana ötən 22 il ərzində müharibə şəraitində yaşamağa məhkum olub. Təbii ki, belə bir şəraitdə iqtisadi inkişafla bərabər, ordu quruculuğu, xüsusən də gənclərin hərbi xidmətə cəlb olunması, şəxsi heyətin hərbi-vətənpərvərlik, mənəvi-psixoloji ruhunun artırılması istiqamətində tədbirlər prioritet təşkil edib. Bu tədbirlər çərçivəsində hətta ölkəmizin müharibə şəraitində yaşaması, Dağlıq Qarabağ münaqişəsinin hələ də tapmaması əsas gətirilərək, həllini ailənin tək oğlan övladlarına, həmçinin ali təhsilin magistr və doktorantura pilləsində təhsil alan oğlanlara hərbi xidmətdən möhlət hüququnun verilməsi də dayandırılıb. Bununla da ailənin tək oğul övladları, eləcə də ali təhsilin bakalavr pilləsini qurtaran hər bir gənc oğlan digər həmyaşıdları kimi hərbi xidmətə cəlb olunublar. Bu qaydalara görə, yalnız ali təhsil alan gənc oğlanlara 1 dəfə möhlət hüququndan yararlanmaq imkanı verilib. Ali təhsilini bakalavr pilləsində başa vurub magistraturaya qəbul olan gənc oğlanlar yalnız hərbi xidmətini keçdikdən sonra təhsilini davam etdirə biliblər. Son vaxtlara qədər bu məsələ bir neçə dəfə ictimailəşdirilsə də, vəziyyəti əvvəlki halına gətirmək mümkün olmayıb. Azərbaycanın müharibə şəraitində olduğu əsas gətirilib və qaydalara dəyişiklik edilməyib .

Lakin cari ilin aprel ayının əvvəlində cəbhə xəttində düşmənin mövqelərimizə soxulma cəhdinin qarşısının alınması, 4 gün davam edən müharibə zamanı Zəngilan rayon sakini, Naftalan rayonundan hərbi xidmətə çağırılan Müşfiq Orucovun şəhid olması sözügedən məsələni yenidən aktuallaşdırdı. Buna səbəb torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan M.Orucovun həm ailənin tək oğlan övladı, həm də qəbul imtahanlarında ən yüksək nəticə göstərərək - 700 bal toplayaraq universitetə qəbul olması, bakalavr təhsilini başa vurandan sonra qanunlara tabe olaraq hərbi xidmətə yollanması idi. İctimaiyyət nümayəndələri bununla bağlı mətbuata açıqlamalarında qeyd edirdilər ki, şəhid M.Orucov kimi istedadlı gənclərə təhsilini davam etdirmək üçün möhlət verilməli, onların öz potensiallarını elm sahəsində nümayiş etdirməsinə imkan yaradılmalı idi. Hətta Milli Məclisin iclasında "Elm haqqında" qanun layihəsi müzakirəyə çıxarılan zaman da bir sıra millət vəkilləri magistratura və doktorantura pilləsində təhsil alanlara hərbi xidmətdən möhlət hüququnun verilməsi təklifini irəli sürmüşdülər. Həmin vaxt bu təkliflər nəzərə alınmadan qanun layihəsi qəbul olunmuşdu.

Ancaq daim xalqın yanında olan, atdığı addımlarla hər bir azərbaycanlının prezidenti olduğunu dəfələrlə sübut edən dövlət başçısı İlham Əliyev iyun ayının əvvəlində Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinə magistr və doktorantlara hərbi xidmətdən möhlət hüququnun verilməsi ilə bağlı qanun layihəsi təqdim etdi. Ölkə başçısı təhsildə fasiləsizliyi təmin etmək və ixtisaslı kadrların hazırlanmasına nail olmaq məqsədilə "Hərbi xidmət və hərbi vəzifə haqqında" qanuna dəyişiklik təklif edirdi. Təklifə əsasən, qüvvədə olan qanunvericilik aktının 21.1.4 cü maddəsində təkcə bakalavr təhsili alanlara deyil, magistr və doktorantlara da hərbi xidmətdən möhlət hüququnun verilməsi nəzərdə tutulurdu. Milli Məclisin iyunun 14-də keçirilən iclasında Azərbaycan Prezidentinin bu təşəbbüsü deputatların müzakirəsinə çıxarıldı və qəbul olundu. Beləliklə də bundan sonra Azərbaycanda əyani təhsilalma formasında magistraturada, doktoranturada, xarici ölkələrin təhsil müəssisələrində əyani təhsilalma formasında ali təhsil pilləsinin magistratura və doktorantura səviyyələrində də təhsil alanlara müvafiq təhsilini bitirənədək hərbi xidmətə çağırışdan möhlət veriləcək.



Belə bir qərarın qəbul edilməsinin əhəmiyyəti barədə fikirlərini açıqlayan **Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə** dövlət başçısının magistr və doktorantlara hərbi xidmətdən möhlət hüququ verilməsi ilə bağlı təşəbbüsünü alqışladığını dilə gətirib. O, bildirib ki, hazırda AMEA-da magistratura üzrə xeyli canlanma var. Akademik onu da əlavə edib ki, Prezident İlham Əliyevin magistr və doktorantlara hərbi xidmətdən möhlət hüququ verilməsi ilə bağlı təşəbbüsü, bu təşəbbüsdən irəli gələrək "Hərbi xidmət və hərbi vəzifə haqqında" qanuna dəyişikliyin edilməsi və qanunun qüvvəyə minməsi təhsilə, kadr hazırlığına böyük zəmin yaradacaq.

**Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli** də hesab edir ki, Azərbaycan Prezidentinin magistratura və doktoranturada təhsil alan gənclərə möhlət hüququnun verilməsi ilə bağlı "Hərbi xidmət və hərbi vəzifə haqqında" qanuna təklif etdiyi əlavə və bu əlavənin qəbul edilməsi müharibə aparan dünya ölkələrinin tarixində, eləcə də gərgin münaqişəsi olan müasir dünya ölkələrində analoqu olmayan mühüm tarixi hadisədir: "Müharibə problemi olan dövlətlərdə adətən hətta yaşından asılı olmayaraq çağırış, səfərbərlik məsələlərinin həll edilməsi diqqət mərkəzində dayanır. Azərbaycanda isə dövlət səviyyəsində gənclərin böyük bir ordusuna möhlət hüququ verilməsi barədə qərar qəbul edilir. Bu, həqiqətən böyük əhəmiyyəti olan mühüm tarixi hadisədir. Belə bir qətiyyətli və düşünülmüş addım ilk növbədə elmin və təhsilin inkişafına, yeni vətənpərvər elmi nəsillərin formalaşmasına göstərilən böyük qayğının növbəti parlaq ifadəsidir. Bu, həm də öz növbəsində yaxın gələcəkdə Azərbaycanda magistratura və doktorantura təhsili almış, yüksək intellektual keyfiyyətlərə, geniş bilik və dünyagörüşə malik professional ordunun da yaradılmasına imkan verəcəkdir".

Millət vəkilinin sözlərinə görə, magistratura və doktorantura təhsili üzrə hərbi möhlət hüququnun təmin edilməsi ölkəmizdə fasiləsiz təhsilin də bütün mərhələlər əsasında ardıcıl olaraq həyata keçirilməsinə meydan açacaqdır: "Fasiləsiz təhsilin, yəni bağçadan doktoranturaya qədər ardıcıl şəkildə təşkil olunan təhsilin təmin edilməsi isə ölkəmizin bütün sahələr üzrə hərtərəfli inkişafına böyük təkan verəcəkdir. Prezident İlham Əliyevin gənclərə hərbi möhlət hüququ verməsi müstəqil dövlətimizin bütün istiqamətlərdəki inkişafına müsbət təsir göstərəcəkdir. Elm sahəsində gəncləşdirmə kimi aktual problemin uğurlu həlli baxımından da hərbi möhlət hüququ müstəsna əhəmiyyətə malikdir. Bununla doktoranturaya qəbul planları tam yerinə yetiriləcək, elmlər doktorlarının orta yaş həddinin 40 yaşa enmək imkanı qazanılacaqdır. Elmdə və ali  təhsildə son illərdə problemə çevrilmiş oğlanların kəskin azalması məsələsi də ortadan qalxmış olacaqdır".

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc** da qeyd edilən məsələ ilə bağlı bildirib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə Milli Məclisdə sözügedən qanuna dəyişikliyin edilməsi təhsildə fasiləsizliyi təmin etmək və ixtisaslı kadrların hazırlanmasına nail olmaq məqsədilə atılan mühüm addımdır: "Azərbaycanda elmin və təhsilin fundamental problemlərindən biri olan bu məsələnin həllini tapması cənab prezidentin yeni təhlükəsizlik siyasətinin tərkib hissəsidir. Ordu peşəkarlardan ibarət olmaqla bərabər, alimlər də elm səngərində döyüşə hazırlanmalıdırlar. Hər il daha çox qocalan elm adamlarımızın orta yaşı 55-dən yuxarı idi".

Deputat Z.Oruc bir alimin hərbi xidmətdə olmayacağı təqdirdə onun yerinin boş qalacağı, yaxud ermənilərin güclənəcəyi ilə bağlı fərziyyələrə də aydınlıq gətirib. Deyib ki, heç kimin belə bir yanlış təsəvvürə qapılmasına lüzum yoxdur: "Hətta yaxın 10 ildə də çağırışçıların sayını proqnozlaşdıra bilərik. Mən alimlərimizin sayına da diqqət çəkmək istəyirəm. 10 min alimimiz var. 10 min nəfərə 1 alim düşür. İndi 30 yaşında alim tapmaq çətindir. Magistrlərə möhlət hüququnun ləğv edilməsi buna təsir etdi. Orta məktəblərdə müəllimlərin 93 faizi xanımdır. Gənclərimizin kişi kimi hazırlanmasında kişi müəllimlərin rolu əhəmiyyətlidir. Magistrlərin arasında da oğlanların sayı azdır. Məsələn, Bakı Dövlət Universitetində magistrlərin 83 faizi xanım, 17 faizi oğlandır. Bu kimi səbəblərdən, dövlət başçısı tərəfindən atılan bu addım, elmdə fasiləsizliyin təmin edilməsi elmin inkişafına səbəb olacaq, Azərbaycan elmi daha da cavanlaşacaq".

**Global Career İnstitutunun və Girne Amerikan Universiteti Millətlərarası Departamentinin Direktoru Orxan Həsənoğlu** da Milli Məclisin "Hərbi xidmət və hərbi vəzifə haqqında" qanuna etdiyi dəyişiklikdən sevinc hissi keçirdiyini söyləyib. Qeyd edib ki, müasir təhsil dünyasına inteqrasiyada mühüm addımlar atılmalı və islahatlar mütləq həyata keçirilməlidir. O.Həsənoğlu əminliklə vurğulayıb ki, bu qanunun qəbul edilməsi sayəsində onlarla gənc yerli və xarici universitetlərdə öz təhsillərini davam etdirə biləcəklər: "Yalnız bu qanunun tətbiq olunmasında bəzi problemlərin yaşanacağını da xüsusi qeyd etmək istəyirəm. Fikrimcə, bu qanunun yaratdığı imkanlardan sui-istifadə edənlər və hərbi xidmətdən yayınanların sayı gerçək elmə töhfə vermək və öz peşə ixtisaslarında daha çox inkişaf etmək istəyənlərin sayından çox olacaq. Bunu səmimi qəbul etmək gərəkdir. Bu gün xarici universitetlərə qəbul olunmaq istəyənlərin sayında ciddi olaraq hərbi xidmətdən yayınanlar çoxluq təşkil edir. Dünyanın demək olar ki, bütün universitetlərinə attestatla qəbul olmaq mümkündür. Reallıq onu göstərir ki, bundan savadlı gənclərdən daha çox savadsız gənclər yararlanırlar. O baxımdan hesab edirəm ki, magistratura və doktorantura pilləsində təhsilinə davam etmək istəyənlərin transkriptləri əsas götürülməlidir. Bakalavr təhsili bitirmə dərəcələri də xüsusi nəzarətdə saxlanılmalıdır. İstənilən ölkədə magistraturaya imtahansız qəbul olmaq mümkündür. Məncə, bu məsələnin həllini müəyyən qurumların vicdanına buraxmaq olmaz. Ona görə də qanundakı müəyyən boşluqlar da mütləq aradan qaldırılmalıdır".

**Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov** doktorantura və magistraturada təhsil alan oğlanlara hərbi möhlət hüququnun verilməsi istiqamətində illərdir çalışdıqlarını, müvafiq qurumlara müraciətlər etdiklərini, məsələni daim ictimailəşdirdiklərini diqqətə çatdırıb. Lakin təəssüflə bildirib ki, bu proseslərdənəticə əldə etmək mümkün olmayıb: "Sağ olsun Cənab Prezident, Ali Baş Komandan! Zamanında məsələyə müdaxilə etdi və qanunvericiliyin dəyişdirilməsi təşəbbüsü ilə çıxış etdi, Milli Məclis də bunu qəbul elədi. Bu addım ölkə rəhbərinin elmin inkişafında nə qədər maraqlı olmasını, ölkə başçısının həyata keçirdiyi siyasətdə elmin inkişaf etdirilməsinin qırmızı xətlə keçməsinin daha bir göstəricisi oldu. O vaxt da, indi də o fikirdəyəm ki, az sayda oğlanları əhatə edəcək bu sənəd təhsildə fasiləsizliyi təmin edəcək, onsuz da yaxşı olmayan elmi kadr potensialımızın yenilənməsinə xidmət göstərəcək. Qanuna dəyişikliyin əhatə etdiyi hərbidən möhlət hüququ qazanacaq oğlanların böyük bir qismi təhsildən sonra hərbi xidmətlərini keçəcəklər. Vaxt gələcək biz ölkə başçımızın bu addımının nə qədər effekt verəcəyinin şahidi olacağıq".

**Aqil LƏTİFOV**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 22 iyul Milli Mətbuatın yaranmasının 141 illiyi ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə təqdim edilir**